AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə:89-99
https://doi.org/10.59849/2664-5432.2026.2.89

Nəriman SEYİDƏLİYEV*

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ FRAZEOQRAFİYANIN İNKİŞAFI

XÜLASƏ

Məqalədə frazeoloji lüğətlərdən bəhs edilir. Burada birdilli, ikidilli lüğətlərdən izahlı, yaxud da izahsız frazeoloji vahidlərdən, ikidilli lüğətlərdən azərbaycanca-rusca, rusca-azərbaycanca, ingiliscə-azərbaycanca, azərbaycanca-rusca mövcud lüğətlər haqqında məlumat verilir. Həmçinin üçdilli ingiliscə-azərbaycanca-rusca, fransızca-azərbaycanca-rusca lüğətlər haqqında da bəhs olunur. Tərtib olunmuş lüğətlərə aid iradlar da bildirilir.

Məqalədə ikidilli və üçdilli atalar sözləri haqqında da məlumatla tanış olmaq olar: almanca-azərbaycanca-rusca, ingiliscə-azərbaycanca və s.

Açar sözlər: *Azərbaycan dili, bir, iki, üçdilli, frazeologizmlər, frazeoqrafiya, ingilis dili, fransız dili, atalar sözü, məsəllər, yuva üsulu, lüğət*

Frazeologiya elmi sahəsində tədqiqat işləri genişləndikcə, artıq, bu sahədə müxtəlif xalqların dilində birdilli, ikidilli, üçdilli və s. lüğətlər də tərtib olunmağa başladı.

Qeyd edək ki, leksikoqrafiyanın tarixində lüğətlərin tərtibində beş üsuldan istifadə olunur: 1) sözyaratma və etimoloji üsul; 2) yuva üsulu; 3) əlifba sırası üsulu; 4) tematik üsul; 5) qafiyə üsulu.

Müasir dövrdə lüğətlərin tərtibində yuva və əlifba sırası üsullarından daha çox istifadə edilir. Frazeoloji lüğətlərin tərtibində, məhz bu iki üsuldan istifadə olunur.

Yuva üsulunda sözün kökü, sonra isə ondan derivasiya olunan sözlər, söz birləşmələri əlifba sırası ilə düzülür. Məsələn, 4 cildlik "Azərbaycan dilinin izahlı lüğəti"ndə əksini tapmış frazeoloji vahidlər qismən yuva üsulu ilə tərtib olunmuşdur. Lüğətdə sərbəst ifadələr □ işarəsindən, idiomlar isə romb ◊ işarəsindən sonra verildiyinə baxmayaraq, sərbəst söz birləşmələri sabit söz birləşməsi ilə qarışdırılır və bəzi hallarda misallar göstərilmir. Buna səbəb tərtibçilərin romb işarələrini düzgün qoymamasından irəli gəlmişdir. Buna aid nümunə göstərməklə kifayətlənirik. Məsələn, □ işarəsindən sonra *abır-həyadan salmaq* frazeoloji vahidi verilmişdir. Bundan əlavə, *dairə vurmaq* ifadəsi iki mənada da □ işarəsindən sonra verilmişdir: 1) dairə şəklində yığılmaq, düzülmək, dövrə vurmaq; 2) məcazi: az rəqs etmək, oynamaq.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Tətbiqi dilçilik şöbəsi, baş elmi işçi, filologiya elmləri doktoru. Email: narimanseyidali@gmail.com

Qeyd edək ki, hər ifadəyə aid nümunə verilsəydi, mənası oxucuya daha aydın olardı. Bu cür nümunələr çox göstərmək olar. Əminəm ki, institutun Tətbiqi dilçilik şöbəsində hazırlanan yeni izahlı lüğətdə bu cür qüsurlar aradan qaldırılmalıdır.

Ağzını qaytarmaq, *ağlaşma açmaq*, *düşmən kəsilmək*, *ah çəkmək*, *ahı göyə (göylərə) çıxmaq*, *axına qoşulmaq*, *dilçilik coğrafiyası*, *dada gətirmək, dodu vermək*, *kor düyün* və s. Onlarla belə ifadələr var...

Dördcildlik lüğətdə verilmiş frazeologizmlərin yalnız çoxmənalılığı verilir. Omonim frazemlər ayrıca verilmir. Onlar da çoxmənalı kimi verilir. Oxucu tərəfindən heç nə aydın olmur.

Bundan başqa, H.Baxşıyev 2004-cü ildə nəşr etdirdiyi "Azərbaycan dilinin müxtəsər frazeologiya lüğəti" və N.Vəliyevanın 2010-cu ildə çap etdirdiyi üçdilli "Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət" yuva üsulu ilə tərtib olunmuşdur.

Sözlərin məna fərqlərini açmaq, izah etmək məqsədi ilə lüğətlərin əksəriyyəti əlifba sırası üsulu ilə tərtib olunur. Burada, həmçinin daxili əlifba sırası nəzərə alınır və bu qayda ardıcıl olaraq davam etdirilir. Əlifba sırası üsulu ilə tərtib olunan lüğətlər istifadə işini asanlaşdırır, zənginlik özünü göstərir.

İstər keçən əsrdə, istərsə də indiki dövrdə birdilli və ikidilli lüğətlərin sayı çoxalmışdır. Məsələn, keçmiş SSRİ-də rusca-ingiliscə, ingiliscə-rusca; türk xalqlarında türkməncə-rusca, tatarca-rusca, başqırdca-rusca ikidilli, özbək dilinin, qazax dilinin birdilli frazeoloji lüğətlərinin adlarını çəkə bilərik.

Azərbaycan dilçiliyində də birdilli və ikidilli, hətta üçdilli frazeoloji lüğətlər çap olunmuşdur. Deməli, frazeoloji lüğətlər tərtib olunarkən birdilli, ikidilli və üçdilli hətta artıq da ola bilər.

Birdilli frazeoloji lüğətlər. Azərbaycan dilçiliyində frazeologiya sahəsində xeyli işlər görülmüş, dissertasiyalar, monoqrafiyalar, elmi məqalələr yazılmış, həmçinin həm izahlı, həm də izahsız birdilli və ikidilli frazeoqrafiyalar tərtib olunub çap edilmişdir.

Birdilli izahlı lüğətlərdən XIX əsrin sonlarında – XX əsrin əvvəllərində görkəmli söz ustası, Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminli "Dilimizdə ikimənalı söz və cümlələr" adlı məqalə yazmış, orada ilk dəfə olaraq həm məcazi məna bildirən sözlərə, həm də frazeoloji vahidlərə həsr olunmuş izahlı lüğət də verilmişdir. Lüğətdə verilən söz və söz birləşmələrini iki yerə bölmək olar: 1) məcazi məna bildirən sözlər; 2) frazeoloji vahidlər.

Məcazi məna bildirən sözlər aşağıdakılardır: *əliəyri, kəsmək, şorgöz, firəng, bədşalvar, çəkmək, silmək, tüstülənmək xəspuş, vurmaq, burunlamaq, bitlənmək, tərs, bozarmaq, qırmızı, cigərli, qaraqabaq, qaşqabaqlı, qızışmaq, dəbbə, qoduqlanmaq, yanıq, havalanmaq, sınmaq, dəgmək, balalamaq, yekəbaş, süzmək, cırmaq, qolsuz.*

Lüğətdə verilmiş frazeologizmləri də iki qrupa bölmək olar: 1) vaxtilə analitik xarakter daşımış, sonradan isə sintaktik şəkil olaraq (yəni bitişik yazılaraq) mürəkkəb sözə çevrilmiş və frazeologizmlərin sırasından çıxmış sözlər; 2) xüsusi (sırf) frazeoloji vahidlər.

Birinci qrupa aid olan aşağıdakılardır: *Əliəgri, biləgikəsik, qutdanquş, cibiyırtıq, başsağlığı, başıətli, üzüyola, başıaşağı, yüzüqara (üzüqara), yürəyiyuxa (ürəyiyuxa), ağgünlü, qaragünlü, qəlbiqara, kolagirdi, qayışbaldır, qaraqayış, başıdaşlı, ağzıcırıq, gözüdoymaz, qulaqkəsən, başqırxan, diliuzun, diligödək, uzunayaq.*

Bu sözlərin də tərkibi hissələrini təşkil edən sözlər ayrı-ayrılıqda götürüldükdə, ifadə etdikləri mənanı ifadə etmir, onlar hazırda frazeologiya sahəsindən çıxıb lüğətçiliyin və leksikoqrafiyanın obyekti olmuşdur. Belə sözlər frazeologiyada öz əksini tapmır.

Y.V.Çəmənzəminlinin lüğətində verilmiş frazeoloji vahidlərə aid bir neçə nümunə veririk: *saqqal altından keçmək* (səthi və zahiri hörmət etmək), *qarnı suya qoymaq* (yemək ümidiylə gözləmək), *ölü eşşək axtarır nalını çıxartsın* (xəsis adam haqqında), *evə süpürgə çəkmək* (oğurlamaq; çalıb-çapmaq), *ölü bit qabığı* (arıq və çəlimsiz adam), *gözün odun almaq* (qorxutmaq), *ağıza su almaq* (sükut etmək), *başa tənbəki oyunu açmaq* (incitmək, əzab çəkdirmək), *dirsək göstərmək* (qüvvətli nümayiş etdirmək, zor göstərmək), *kölgəsindən ürkmək* (ifrat qorxmaq), *gözü yolda qalmaq* (bəkləmək, gözləmək) və s. Y.V.Çəmənzəminlinin dilçilik görüşləri haqqında geniş məlumat bilmək istəyənlər Ş.Abdullayevanın "Y.V.Çəmənzəminlinin dilçilik görüşləri" adlı monoqrafiyasından yararlana bilər.

Birdilli ikinci bir frazeoloji lüğət S.Cəfərovun 1958-ci ildə çap olunmuş "Müasir Azərbaycan dilinin leksikası" kitabında rast gəlirik. Çox qısa şəkildə olan lüğətin izahı verilmir. Burada 1650-yə qədər frazeologizm öz əksini tapmışdır.

Lüğətdə vaxtilə ayrı yazılmış xeyli söz hazırda bitişik yazılaraq mürəkkəb sözə çevrilmişdir: *ağciyər, atüstü, birbaş, birbaşa, qanıaçıq, qamqara, qanışirin, qarayaxa, qaraqabaq, qaraqorxu, qəlbiqara, dilucu, diliacı, dilizəhər, diligödək, diliuzun, əliboş, əlidolu, əliəyri, əligödək, əliuzun, ətiacı, ətişirin, kulbaş, kütbaş, kütbeyin, laləyanaq, gülüzlü, poladürək, sadədil, sadəlövh, sacəppəyi, soyuqqabaqlı, türkəçara, üzüağ, üzüqara, üzüyola, üzüsulu* və s.

Həmin sözlərin əksəriyyəti danışıqda işlənən məcazi mənalı mürəkkəb sözlərdir. Frazeoloji vahidlərin izahı olmadığından oxucunu çaş-baş salır.

Birdilli izahlı frazeoqrafiyaya aid H.Baxşıyevin "Azərbaycan dilinin müxtəsər frazeologiya lüğəti"nin adını çəkə bilərik. Lüğət, demək olar ki, 4 cildlik "Azərbaycan dilinin izahlı lüğəti"ndən götürülmüş frazeologizmlərdən ibarətdir. Lüğət yuva üsulu ilə hazırlanmışdır.

Yuxarıda adları çəkilən frazeoloji lüğətlərə qədər Azərbaycan dilinin illüstrativ izahlı frazeoloji lüğəti olmayıb. Belə bir lüğət ilk dəfə N.Seyidəliyev tərəfindən hazırlanmış və 2004-cü ildə "Frazeologiya lüğəti" adlı kitab çap olunmuşdur. Lüğətdə hər bir frazeoloji vahidə aid izahdan sonra illustrativ material verilmişdir ki, onlar da Azərbaycan dastan və nağıllarından götürülmüşdür. Lüğət 4 mindən artıq frazeoloji vahidi özündə birləşdirir. 272 səhifədən ibarət lüğətdə, həmçinin, 100-ə qədər atalar sözü kimi formalaşan frazem verilmişdir.

Bu tipdə hazırlanmış ikinci bir frazeoloji lüğət F.Hüseynov və B.Əhmədovun 2011-ci ildə çap olunmuş "Məktəblinin frazeoloji lüğəti"dir. Yeri gəlmişkən, qeyd edək ki, N.Seyidəliyevin 2024-cü ildə, həmçinin, "Məktəblinin frazeoloji sinonimlər lüğəti" də çapdan çıxmışdır. Lüğət məktəblilər üçün çox faydalıdır. Lüğət şagirdlərin yaş və bilik səviyyəsinə uyğun 2600 ifadəni əhatə edir. Müəlliflər lüğətin yazılmasında N.Seyidəliyevin topladığı bəzi nümunələrdən də istifadə olunduğunu qeyd edirlər. Lüğətdə çoxmənalı frazeoloji vahidlərə yer verilməyib, yalnız 5 frazemin omonimi göstərilmişdir: *baş vermək, can vermək, cana gəlmək, dada gəlmək, üz tutmaq.* Lüğətdə, həmçinin, verilmiş frazemlərə aid cümlələrdə işlənmiş 218 çətin sözün izahı və xüsusi ixtisarlar (yəni lüğətdə istinad olunan müəlliflərin adı və soyadı) verilmişdir.

2015-ci ildə daha bir izahlı frazeoloji lüğət Q.Məhərrəmli və R.İsmayılvun tərtib etdikləri "Azərbaycan dilinin frazeologiya lüğəti" kitabıdır. Əlifba üsulu ilə hazırlanmış lüğətdə 7000-ə yaxın frazeoloji vahidin izahı verilmişdir. Burada əsas prinsip şifahi və yazılı ədəbiyyatda rast gəlinən ifadələrin ümumişləkliyidir.

İzahdan əvvəl ifadələrin qarşısında hansı məqsədlə işlədildiyi göstərilmir, yalnız danışıqda işlənən frazemlərin qarşısında (dan.) ixtisarından istifadə olunmuşdur. Lüğətdə verilmiş çoxmənalı və omonim ayrı-ayrılıqda deyil, bir yerdə verilir ki, bu da oxucuda çaşbaş yaradır, konfiqurasiyadan istifadə edilmir. Lüğətdə, həmçinin, 300-dən artıq atalar sözü və məsəllər də öz əksini tapır.

Daha böyük həcmli birdilli frazeoloji lüğət N.Seyidəliyev və B.Əhmədov tərəfindən uzun müddət hazırlanmış və 2024-cü ildə iki cilddə, – I cild 1140, II cild 1128 səhifədən ibarət, – "Azərbaycan dilinin böyük frazeoloji lüğəti" kitabı çap olunmuşdur. Əvvəlki lüğətlərdən fərqli olaraq bu lüğətdə 20500-ə qədər frazeologizm verilmişdir.

Burada hər bir ifadə izah olunaraq, illüstrativ materiallar "Dədə Qorqud" dastanından və klassik ədəbiyyatdan başlamış müasir ədəbiyyatda tanınmış 750-yə qədər şair və yazıçının əsərlərindən, mətbuat səhifələrindən, internet saytlarından nümunələr öz əksini tapır.

Böyükhəcmli frazeoloji lüğətdə həm çoxmənalı, həm də omonim frazeologizmlər ayrı-ayrılıqda verilmişdir. Lüğətin quruluşu çox genişdir. Lüğətin girişində N.Seyidəliyevin "Frazeologiya və frazeoloji lüğətlər haqqında" ətraflı məlumat verilir.

Lüğət yuva üsulu ilə deyil, əlifba sırası üsulu ilə verilmişdir. Ədəbi dildə və ümumxalq danışıq dilində işlədilən frazeologizmlər lüğətə daxil edilib. İfadələrin qarşısında onun izahı, sonra isə əsərlərdən nümunələr verilir. Personajların dili olduğu kimi saxlanılmışdır.

Lüğətdə atalar sözləri və məsəllərə yer verilməyib. Lazım gəldikdə hər bir ifadədən sonra onun üslubi və ya emosional ekspressiv xarakteri xüsusi işarə ilə göstərilir. Məsələn: *dan., evf., istehz., kin., tənt*. və s. Vasitəli tamamlıqlar tələb edən hal sualları ifadələrin yanında mötərizədə göstərilir: (kim, nəyi, kimə nəyə, nə və s.).

Omonim ifadələr ayrı-ayrı yuvalarda verilir və Roma rəqəmi ilə fərqləndirilir (I, II, III). Variant və sinonim frazeologizmlər dominant formalı vahidə "bax" sözü ilə yönəldilir. Lüğətdəki ifadələrin izahı yalnız kontekstə uyğun verilmişdir. Çoxmənalı frazeoloji vahidləri bir-birindən fərqləndirmək üçün rəqəmlərdən istifadə edilir (1, 2, 3, 4...). Lüğət demək olar ki, oxucuların bütün tələblərini ödəmək üçün zəngindir.

Son birdilli izahlı lüğətlərdən biri də F.Salayevanın 2024-cü ildə çapdan çıxmış "Azərbaycan dilinin somatik frazeologizmlər lüğəti"nin birinci cildidir. Lüğətdə A və B hərfləri ilə başlanan ifadələr toplanmışdır və 2000-dən artıq somatik frazeoloji vahidi əhatə edir.

Somatik termin "soma" yunan sözündəndir, mənası "bədən", "vücud", deməkdir. Deməli, somatik leksika insanın bədən üzvlərinin adlarını bildirən lüğəvi vahidlərdir. Belə bir ikidilli lüğət ilk dəfə 2005-ci ildə çapdan çıxmışdır. "İngiliscə-azərbaycanca və azərbaycanca-ingiliscə somatik frazeoloji birləşmələr lüğəti" adlı lüğət Ə.Hacıyeva tərəfindən tərtib olunmuşdur.

F.Salayeva belə bir lüğətin hazırlanmasında Ə.Hacıyevanın adıçəkilən lüğətindən və N.Seyidəliyev və B.Əhmədovun çapdan çıxmış "Azərbaycan dilinin böyük frazeoloji lüğəti"ndən bəhrələnmişdir.

İllüstrativ materialların verilməsində ikinci adıçəkilən lüğətdən istifadə edilmişdir. Demək olar ki, lüğət "Azərbaycan dilinin böyük frazeoloji lüğəti"n davamıdır.

İkidilli və çoxdilli frazeoloji lüğətlər. Müasir dilçilikdə ikidilli, bəzən də üçdilli (çoxdilli) lüğətlərə çox diqqət verilir. Bu cür lüğətlərin sözlüyü praktik cəhətdən vacib sözlər əsasında tərtib olunur. Burada sözlərin mənası tərcümə olunur. Tərcümədə bir dilin zənginliyi, xüsusiyyətləri, səciyyəsi açılır, qarşılaşdırılan dilin ekvivalenti (sözü) ilə düzgün əks etdirilir.

İkidilli tərcümə lüğətlərinə azərbaycanca-rusca, rusca-azərbaycanca, azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca, almanca-azərbaycanca, fransızca-azərbaycanca, rusca-farsca-azərbaycanca və s. misal göstərmək olar.

Azərbaycan dilçiliyində, həmçinin, ikidilli, üçdilli frazeoloji lüğətlər də çap olunmuşdur. İlk "Azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca müxtəsər frazeoloji lüğət" 1962-ci ildə çap olunmuşdur. Lüğətin tərtibçiləri X.Əhmədova və İ.Rəhimovdur. Kiçikhəcmli lüğətdə bəzi atalar sözləri də verilmişdir. Lüğətdə iki minə yaxın ifadə və 400-ə qədər atalar sözü verilmişdir. Atalar sözlərində vətənə məhəbbət, dostluq, sədaqət və əməyə hörmət ifadə olunur. İngiliscə-azərbaycanca hissədə verilən ifadələrin əksəriyyəti tədris kitablarına daxil olmayan mətbuat səhifələrində tez-tez işlədilən ifadələrdən ibarətdir. Lüğətdə atalar sözləri verilibsə, deməli, lüğətin adında "frazeoloji" termini deyil, "frazeologiya" termini olmalı idi. Lüğət həcminə və ifadələrinə görə müasir oxucu tələblərini tam ödəmir.

İkinci lüğət 1964-cü ildə çap olunmuş frazeoloq M.Tağıyevin tərtib etdiyi "Müxtəsər rusca-azərbaycanca frazeoloji lüğət"dir.

Əvvəla, onu vurğulayım ki, M.T.Tağıyev Azərbaycanda rus dilinin frazeologiyasının ilk tədqiqatçısıdır. O, "Müasir rus dilində feili frazeologiya" əsərində dilçiliyə əhatə nəzəriyyəsini gətirmiş və rus dilçiləri tərəfindən çox bəyənilmişdir.

Müəllif rus dilində işlənən feili frazeologizmləri əhatə baxımından sistem halında araşdırmışdır. M.T.Tağıyev adıçəkilən lüğətini yenidən işləmiş, təkmilləşdirmişdir. İkinci dəfə 1974-cü ildə "Rusca-azərbaycanca frazeoloji lüğət" adı ilə yenidən çap etdirmişdir.

Üçüncü dəfə müəllif tərəfindən lüğət yenidən hazırlanmış, daha da genişləndirmiş, frazeoloji birləşmələrin qarşılıqlarını bir qədər dəqiqləşdirmişdir. Bu nəşrə o, əsas mətnə paremiyaları da əlavə vermişdir. Beləliklə, üçüncü nəşr T.H.Şükürbəyli və R.T.Tağıyevin redaktəsi ilə 2006-cı ildə çap olunmuşdur.

Həmin çapın əvvəlkilərdən fərqi lüğətin rus hissəsindəki frazeologizmlərin bütün komponentlərində vurğu işarəsinin qoyulmasıdır.

Frazeoloji vahidlər lüğətdə əlifba sırası üsulu ilə verilmişdir. İfadələrdə qrammatik əlaqələrə də geniş yer verilir.

Qeyd edək ki, "Rusca-azərbaycanca frazeoloji lüğət"də əhatə tam verilmir, semantik quruluş sememlərə əlavə mənalara bölünmür. İki semem əvəzinə, bir semem verilir.

Ə.Orucovun tərtib etdiyi lüğət "Azərbaycanca-rusca frazeologiya lüğət"i adlanır. Lüğət 1976-cı ildə çapdan çıxmışdır. 5500 frazeoloji vahidi əhatə edən bu lüğətdə Azərbaycan dili frazeoloji vahidlərinin rus dilində qarşılıqları verilmişdir. Lüğətdə ancaq frazeologizmlər əsas obyekt kimi götürülmüşdür.

Həm M.T.Tağıyevin, həm də Ə.Orucovun lüğətində frazeologizmlər hər iki dildə qarşılaşdırılır, izah isə verilmir. Çox cüzi olaraq, rusca qarşılığı olmayan ifadələr izah yolu ilə verilmişdir. Bir çox ifadənin mənasında hərfi tərcümədən istifadə olunmuşdur. İki nümunə göstərməklə kifayətlənirik:

Ağzını yoxlamaq – проверить рот.

Başını piyləmək – голову его смазывать жиром.

İkinci "Azərbaycanca-rusca frazeologiya lüğəti"nin tərtibçisi H.Baxşıyevdir. 7500 ifadəni özündə əks etdirən lüğət 2006-cı ildə çapdan çıxmışdır. Lüğət yuva üsulu ilə tərtib olunub. Lüğət, əsasən, tərcümə xarakteri daşıyır. Hərfi (kalka) tərcümədən çox istifadə olunub. H.Baxşıyevin lüğətindən fərqli olaraq, Ə.Orucovun tərcümə qarşılığı daha geniş və məqsədəuyğundur.

İkidilli frazeoloji lüğətlərdə yalnız rus dili deyil, digər xarici dillərin də rolu böyükdür. Məsələn, ingiliscə-azərbaycanca, azərbaycanca-ingiliscə, almanca-azərbaycanca, fransızca-azərbaycanca və s. digər dillər.

İngiliscə-azərbaycanca, azərbaycanca-ingiliscə lüğətə aid Ə.Hacıyeva, A.Hacıyeva və V.Eyvazovanın birlikdə yuva üsulu ilə tərtib etdikləri "İngiliscə-azərbaycanca frazeoloji lüğət"i misal göstərmək olar. Həmin lüğətdə 30000-dən artıq frazeoloji vahid verilmişdir. İlk dəfə tərtib olunmuş lüğət ingilis dilini öyrənmək istəyən hər bir azərbaycanlı üçün ələlxüsus da tələbələr, mütəxəssislər, tərcüməçilər üçün çox faydalıdır.

Lüğət tərkibinə görə zəngin olsa da, orijinaldan tərcümənin günü-gündən artan tələblərinə tam cavab vermir, bundan da artıq ifadənin olması vacibdir.

Qeyd edək ki, ikidilli frazeoloji lüğətlərin yaradılması, onların təkmilləşdirilməsi, sayının artırılması bir tərəfdən hər iki dilin frazeoloji sisteminin öyrənilməsinin nəzəri əsaslarının işlənməsinə, digər tərəfdən isə tərcümə və tədris işinə kömək edə bilər.

Ə.Hacıyevanın, həmçinin, "İngiliscə-azərbaycanca və azərbaycanca-ingiliscə somatik frazeoloji birləşmələr lüğəti" də 2005-ci ildə çap edilmişdir. Qısa olaraq bu lüğət haqqında yuxarıda aydınlıq gətirilmişdir.

Ə.Hacıyevanın və qızı – hazırda ingilis dilinin tədrisi ilə məşğul olan A.Hacıyevanın "İngilis-Azərbaycan dillərində alqış və qarğışların müxtəsər lüğəti" də 2002-ci ildə işıq üzü görmüşdür. Həmçinin A.Hacıyevanın "İngiliscə-azərbaycanca zoometaforfizmlər lüğəti" də 2004-cü ildə çap olunub.

İkidilli lüğətə, həmçinin, dərs vəsaiti kimi İ.Əliyevanın "Almanca ən çox işlənən söz və ifadələr və onların Azərbaycan dilində qarşılığı" sözlüyünün adını çəkə bilərik (2009). Lüğətdə 3360-a qədər ifadə toplanmışdır. Lüğət yuva üsulu sistemi ilə tərtib olunmuşdur.

İkidilli frazeoloji lüğətlərdən biri də "Azərbaycan dilinin frazeologiya lüğəti" kitabıdır. Lüğətin tərtibçi-müəllifləri filologiya elmləri doktorları prof. İ.Həmidov və M.Qocayev, filologiya üzrə fəlsəfə doktorları dos. R.Məmmədova və Z.Həmidovadır. Lüğət, demək olar ki, Azərbaycan dilinin paremioloji-frazeoloji fondunu transdil nəzəriyyəsi müstəvisində əhatə edir. Lüğətdə verilmiş paremioloji-frazeoloji vahidlər klassik və müasir yazıçıların əsərlərində, ayrı-ayrı publisistik məqalələrdə, dövri mətbuatda, həmçinin gündəlik danışıq dilində işlədilən frazemlər öz əksini tapmışdır. Həmin ifadələr leksik-qrammatik variantda verilmişdir.

Müsbət cəhətdən biri də budur ki, rus və qeyri-rus dilli kütlənin maraq dairəsi nəzərə alınaraq lüğət məqaləsinin vokabullarının (məqalə başlıqlarının) rus dilində olan ekvivalentləri də verilmişdir.

"Azərbaycan dilinin frazeoloji lüğəti" 16 mindən çox leksik-qrammatik variantı və 23 mindən çox paralel ifadəni özündə əks etdirir. Lüğətdə təsvir olunan paremioloji-frazeoloji ifadələr əlifba sırası ilə verilmişdir. Hər bir dominant frazemin məna izahı, ədəbiyyat nümunələri, sinonim və antonimləri də göstərilmişdir. Bir sözlə, lüğət orijinal bir prinsip üzrə tərtib olunmuşdur. Belə ki, məqalələr 6 pozisiya üzrə təsvir edilmişdir:

1. lüğət məqaləsinin başlığı; 2. leksik-qrammatik vahidlər; 3. məna izahı; 4 bədii ədəbiyyatdan illüstrativ nümunələr; 5. müqayisə üçün materiallar; 6. rus dilindəki ekvivalentlər.

Bu pozisiyanın hər biri lüğətin "Ön söz" hissəsində öz şərhini tapmışdır.

Bununla yanaşı, dörd elmi-nəzəri prinsip əsasında əksini tapır:

1. Frazeologiya sistemi transdil xarakter daşıyır.

2. Frazeoloji vahidlərin dil reallığı birinci növbədə, onların leksik-semantik variantları sistemində əksini tapır.

3. İllüstrativ material Azərbaycan klassik ədəbiyyatından seçmələr. Burada, həmçinin çoxmənalılıq da özünü göstərir.

4. Frazeoloji vahidlərin bir dildən başqa dilə tərcüməsi.

Qeyd edək ki, bu tərcümə problemi hələ də polemik olaraq qalmaqdadır. Baxmayaraq ki, dünya dilçiliyində frazeologiyaya aid bir çox mübahisəli məsələlər aradan qaldırılsa da, tərcümə problemi hələ də öz həllini tapmamışdır və tapması da qeyri-mümkündür. Çünki bir dilin frazeologiyası başqa dilə tərcümə olunmur. Bu, yalnız ekvivalent tələb edir. Hərfi tərcümə isə heç cür mənalandırılmır.

Danılmaz faktdır ki, leksikoqrafiya sahəsində çap olunan bütün ilkin lüğətlər tam formalaşmamış halda olur; çatışmayan hallar, nöqsanlar özünü göstərir. Lakin illər keçdikcə həmin lüğətlər yeni nəşrə kimi təkmilləşdirilir, nöqsanlar tədricən aradan qaldırılır, tam formaya düşür. O cümlədən də "Azərbaycan dilinin frazeologiya lüğəti"ndə də müəyyən nöqsanlara rast gəlmək olur.

İlk olaraq, onu vurğulaya bilərik ki, lüğət "Azərbaycan dilinin paremiolojifrazeoloji lüğəti" adı altında nəşr olunsaydı daha məqsədəuyğun olardı. Belə ki, lüğətdə paremiyadan (atalar sözləri və zərbi-məsəllərdən) da geniş istifadə olunmuşdur. Təkcə "A" hərfi ilə başlanan ifadələrdə 100-dən artıq paremiya verilmişdir. Bəzi nümunələr: *Ac qulağım, dinc qulağım, Acıqlı başda ağıl olmaz, Acın qarnı doysa da, gözü doymaz, Adam gəmidə oturub gəmiçi ilə dava eləyir, Ağa Nəzərəm, belə gəzərəm, Ağac bar gətirdikcə başın aşağı salır, Ağası bir satın aldı, davanı satın aldı, Ağası gülüm olanın başına külüm olar, Ağıllı olub dərd çəkincə, dəli ol, dərdini çəksinlər, Ağlamayan uşağa süd verməzlər* və s.

Frazeoloji lüğətdə buna ehtiyac da yoxdur. Çünki cümlə tipli frazeologiya kimi götürülən atalar sözləri folklorun kiçik bir janrı kimi ayrıca kitab halında nəşr olunduğu halda, onların bu lüğətdə verilməsi düzgün deyil.

Lüğətdə tək bir sözdən ibarət leksik vahidlər də verilmişdir ki, onlar frazeoloji vahid deyil, sadəcə məcazi mənalı sözlərdir. Məsələn: *dağlamaq, dəyməz, doluxsunmaq, əkilmək, ləkələmək, gileylənmək, həmdülillah, xərifləmək, xeyirdimi, matişkə, obaşdan, sübhəsiz, tovlə, vəssalam* və s.

Frazeoloji vahidlər ən azı iki sözdən ibarət olur. Dildə elə sərbəst söz birləşmələri, yaxud da mürəkkəb söz birləşmələri də vardır ki, müəlliflər həmin sözləri də frazeoloji vahid kimi lüğətdə veriblər: *cadu etmək, cəfa etmək, cin olmaq, davakar adam, etiraf etmək, etiraz etmək, əhd eləmək (etmək), ifşa etmək, insaflı olmaq, ərköyün olmaq, fağır olmaq, fərsiz övlad, gecə vaxtı, gəlmə adam, giley etmək, xainlik etmək, xəta etmək, xəcil etmək, xəcil olmaq, qüsl etmək, mədh etmək, nalə etmək, örnək olmaq, paxıl olmaq, paxıllıq etmək, pislik etmək, pulgir adam, səhv etmək, adaş olmaq, ahıl kişi, ağsaqqal olmaq* və s.

Üçdilli frazeoloji lüğətlər. Azərbaycan dilində frazeoqrafiya içərisində üçdilli lüğət maraq doğurur. Belə lüğətlərdən biri N.Vəliyevanın üç dildə tərtib etdiyi 2 cildlik "Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət"idir.

Üçdilli lüğətin dilimizdə əhəmiyyəti böyükdür. Bunun əhəmiyyəti ondandır ki, həm ingilis, həm də rus dilini öyrənənlər, tərcümə işi ilə məşğul olanlar bəhrələnə bilərlər.

Lüğət müəllifin yazdığına görə lüğətə təxminən 90000-dən artıq söz və ifadə daxil edilmişdir. Frazeoloji lüğətdə sadə leksik vahidin sözlərinə əlavə edilməsinin mənası yoxdur.

Lüğətdə frazeoloji vahid kimi verilmiş sözlərin sayı hədsizdir. Bir neçəsini nümunə kimi veririk: *acgöz, acıq, acılamaq, acımaq, acışdırmaq, acqarına, açıqürək, addımlamaq, afərin, ağac, ağbağır, ağciyər, ağciyərlik, ağıllı, ağzıboş, ağzıgöyçək, ağzıheyvərə, ağzıköpüklü, ağzıyelli, ailə, ajarda, alababat, alınmamaq, alışmaq, allahsız, alov, anadangəlmə, ancaq, aparmaq, başlanmaq, bayquş, bayram, birnəfəsə, birsəslə , birlikdə.*

Hətta müəllif *ac* sözünün tərkibində bitişik yazılan "acqarına" sözünün ayrı yazılmış formasını da vermişdir. Həmçinin səh. 53-də *ac qarına* sözü bitişik verilmişdir. Bu cür qüsurlar lüğətdə çoxdur. Doğrudur, ingilis dilində frazeoloji vahid dilimizə bir sadə sözlə tərcümə oluna bilər. Bəlkə, müəllif fikrini bu cür ifadə edib?! Lüğətin bu cür tərtibi oxucunu da çaşdırır. Lüğət yuva üsulu ilə tərtib edilmiş və buraya atalar sözləri, zərb məsəlləri də əlavə olunmuşdur.

Üçdilli lüğətə G.Sadıxovanın "Библейская фразеология и французком, азербайджанском и русском языках" lüğətini misal göstərə bilərik. Lüğət 2012-ci ildə çapdan çıxıb. İlk dəfə nəşr olunan lüğət fransız dili mütəxəssislər üçün gözəl nümunədir. Bununla bərabər, G.Sadıxovanın 4 dili özündə əks etdirən " Концепт числа и фразеология разносистемная языков" lüğəti də 2018-ci ildə çap olunmuşdur.

Dilçilikdə frazeologizmlərin müəyyənləşdirilməsində əsas problemlərdən biri də atalar sözü və zərbi-məsəllərdir. Bu sahə frazeoloqları iki qrupa ayırmışdır. Bir qrup dilçilər atalar sözlərini frazeologiya daxil edir, digər az bir qrupu isə bunun əksinə çıxır. Beləliklə, frazeologiyanın dar yaxud geniş mənada götürülməsi polemikaya səbəb olur.

S.Cəfərov frazeologiya sahəsində öyrənilən sabit söz birləşmələrinin aşağıdakı növlərini göstərir: "idiomlar, ibarələr, hikmətli sözlər, atalar sözləri, zərbi-məsəllər, tapmacalar. Müəllif yazır ki, bütün atalar sözü həyatı hadisələrlə əlaqədar yaranır və zaman keçdikcə, daha doğrusu öz mənşəyindən uzaqlaşdıqca abstraktlaşır, ümumiləşir və öz həqiqi mənasını tamamilə itirir.

A.Qurbanov vurğulayır ki, frazeoloji ifadələr sırasında atalar sözü, məsəllər, yazıçıların yaratdığı məsəlvari ifadələr, aforizmlər, həmçinin bəzi rəvayətli ifadələr, stamp və klişe adlanan ifadələr, ədəbi sitatlar və s. daxildir.

Qeyd edim ki, Atalar sözü və məsəllərin böyük bir qismi frazeologiyaya daxildir. Bir çox atalar sözü həm həqiqi, həm də məcazi mənada işlədilir.

XIX əsrin sonlarında və XX əsrdin əvvəllərində atalar sözünün toplanması və müxtəlif mətbuat səhifələrində cap olunması işində İ.Məmmədzadənin, M.Qəmərlinin, F.Köçərlinin və başqalarının xüsusi rolu olmuşdur. Həmçinin

A.Şaiqin, N.Nərimanovun, Y.V.Çəmənzəminlinin, S.M.Qənizadənin bu sahədə əməkləri danılmazdır.

Folklorşünas Ə.Hüseynzadə isə böyük bir zəhmətlə faydalı iş görmüş, dilimizdə olan atalar sözləri və məsəlləri bir küll halında toplamağa girmiş və onların sayını 50 minə çatdırmışdır. O, ömrünün 60 ilini bu sahəyə həsr etmiş müxtəlif illərdə bir-birinin ardında kitab nəşr etdirmişdir: 1926, 1938, 1949, 1956, 1965, 1971, 1981, 1982 və 1985 (tərtibçi Həmid Qasımzadə. B.Tahirbəyovla birlikdə).1983-cü ildə B.Tahirbəyovla birlikdə onun "Müxtəsər rusca-azərbaycanca və azərbaycanca-rusca atalar sözləri" çapdan çıxmışdır. Hətta iki, yaxud da üçdilli ingiliscə-azərbaycanca atalar sözü, almanca-azərbaycanca atalar sözləri kitabı çap olunmuşdur. Buna nümunə olaraq aşağıdakı lüğətlərin adlarını çəkə bilərik: T.Abasquliyevin "İngilis atalar sözləri və onların azərbaycanca-rusca qarşılıqları"(1981), Ə.N.Heseynzadənin "Atalar sözü və məsəllər (rusca-azərbaycanca qarşılıqları)"(1971), G.Sadıxovanın "Rusca-azərbaycanca müxtəsər atalar sözləri lüğəti"(1999), N.Seyidəliyev və S.Abdullayevin "Alman atalar sözləri və onların azərbaycanca, rusca qarşılıqları"(2001), A.Abbasovun "İngiliscə-azərbaycanca atalar sözləri və məsəllər lüğəti" (2009), İ.H.Həmidovun "Azərbaycanca-rusca atalar sözləri lüğəti"(2004), İ.Həmidov və başqalarının həmmüəlliflərinin "Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi məsəllər lüğəti" (2009), İ. Mürşüdovun "Alman dilində atalar sözləri və məsəllər, onların ingilis, Azərbaycan və rus dillərində qarşılıqları"(1997), A.Abbasov, X.Məmmədov "Azərbaycanca-ingiliscə-rusca paremioloji vahidlər" (2019) və s.

Yuxarıda adıçəkilən lüğətlərin yaranmasına olan ehtiyac həm orta məktəblərdə, həm də ali məktəblərdə ana dilinin və xarici dillərin tədrisindən, eyni zamanda, geniş oxucu kütləsi üçün frazeoloji vahidlərin öyrənmək arzusundan doğmuşdur. Lüğətlərin canlı danışıq dilində, bədii ədəbiyyatın oxunub tərcümə edilməsində əhəmiyyəti böyükdür.

THE DEVELOPMENT OF PHRASEOGRAPHY IN AZERBAIJANI LINGUISTICS

SUMMARY

This article examines phraseological dictionaries. It provides information on phraseological units with their explanations, monolingual and bilingual dictionaries, and existing dictionaries in Azerbaijani-Russian, Russian-Azerbaijani, English-Azerbaijani, and Azerbaijani-Russian. Trilingual dictionaries in English-Azerbaijani-Russian and French-Azerbaijani-Russian are also discussed. Comments on the resulting dictionaries are provided. The article also provides information on bilingual and trilingual proverbs: German-Azerbaijani, Russian, English-Azerbaijani etc.

Key words: *Azerbaijani language, monolingual, bilingual, trilingual, phraseological units, phraseology, English, French, proverbs, sayings, nesting method, dictionary*

РАЗВИТИЕ ФРАЗЕОГРАФИИ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКОЗНАНИИ

РЕЗЮМЕ

В статье рассматриваются фразеологические словари. Здесь представлена информация о фразеологических единицах с их пояснениями, об одноязычных и двуязычных словарях, а также о существующих словарях на азербайджанско-русском, русско-азербайджанском, англо-азербайджанском и азербайджанско-русском языках. Также рассматриваются трехъязычные словари на английском-азербайджанско-русском и на французско-азербайджанско-русском языках. Приводятся замечания к составленным словарям.

В статье также представлена информация о двуязычных и трехъязычных пословицах: немецко-азербайджанской, русской, англо-азербайджанской и др.

Ключевые слова: *Азербайджанский язык, моноязычный, двуязычный, трехъязычный, фразеологизмы, фразеология, английский язык, французский язык, пословицы, поговорки, метод вложенности, словари*